BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2013

# TARİX

UOT 94 (479. 24)

## XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLİNDƏ ŞİMALİ AZƏRBAYCANIN SAHİBKAR KƏNDİNDƏ PAMBIQÇILIQDA ƏMTƏƏ-KAPİTALİST MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI

**F.A.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***baxsaliebfazil@yahoo.com***

*Azərbaycan sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişaf templəri müxtəlif yerlərdə və kənd təsərrüfatı istehsalının ənənəvi sahələrində vaxt və yeri baxımından müəyyən fərqlərə malik olmuşdur. Bəhs olunan münasibətlərin yarandığı sahələr içərisində ilk yerlərdən birində pambıqçılıq dayanırdı. XIX əsrin sonları- XX əsrin əvvəlində sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı ilk növbədə daxili bazarın yaranması və ayrı-ayrı ərazilərin və qəzaların müxtəlif kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşmasına təsir göstərirdi. Əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı prosesi kənd təsərrüfatı istehsalının bütün sahələrində heç də eyni sürətlə və dinamika ilə cərəyan etməmişdir.*

**Açar sözlər:** kapitalist, inkişaf, kənd, Şimal

XIX əsrin sonu- XX əsrin əvvəlində Şimali Azərbaycanın sahibkar kəndində çox gəlirli sahə olan pambıqçılıq mülkədar-bəylərlə xırda torpaq sahibləri arasında, kəndli ilə icarədar arasında münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlanmasına səbəb olmuşdu. Ümumiyyətlə, mülkədar və digər xüsusi mülkiyyətçi kateqoriyasından olan şəxslərin mülklərində pambıq əkinlərinin salınması, bu məqsədlə yüzlərlə desyatin əkin sahəsinin icarəyə verilməsi o dövr üçün tamamilə yeni hadisə idi (5, 160-161). Qısa müddətdə pambıq plantasiyalarının sahəsinin bəzən 100 dəfələrlə artması, Şimali Azərbaycan sahibkar kəndində icarədarlardan ibarət xüsusi təbəqənin yaranmasını sürətləndirirdi (6, 97; 12, 212-213). Bu təbəqənin içərisində sahibkar kəndindən olan varlı qolçomaq və ortabab kəndlilərə də tez-tez rast gəlmək olurdu.

Pambıqçılıq, bir qədər də ipəkçilik, kənd təsərrüfatının elə sahəsi idi ki, burada məhsulun şəxsi tələbat üçün çox cüzi bir hissəsinin ayrılmasından

söhbət gedə bilərdi. Hətta mülkədardan icarə olunan pay torpağının bəzən 0,5-1 desyatinində, bəzən də hələ lap az bir hissəsində pambıq əkən sahibkar kəndlilər yalnız bu yolla nəqd pul vəsaiti əldə etmək, onu təsərrüfatın digər sahələrinin inkişafına yönəltmək və bazarla əlaqələri genişlənmək hesabına zəruri məişət malları almaq imkanı əldə edə bilərdilər.

Yeri gəlmişkən, qeyd edək ki, əmtəə-kapitalist münasibətlərinin inkişafı və genişlənməsində mütərəqqi üsullardan, təkmil kənd təsərrüfatı texnikası və xüsusən də traktorlardan istifadə hallarının da artmasının böyük rolu var idi. Mülkədar təsərrüfatlarında maşınların işlədilməsinin əhəmiyyətindən danışarkən qeyd etmək lazımdır ki, kənd təsərrüfatında maşınların işlədilməsi və bunun get – gedə genişlənməsinin əsas səbəbi məhz kapitalizm idi, əkinçilikdə maşın tətbiqi məhz kapitalist xarakterli idi (9, 239). Yeri gəlmişkən, XIX əsrin sonu - XX əsrin ilk illərində də pambıqçılıq sahəsində əldə edilmiş nailiyyətlərdə, bu amilin xüsusi rolu olmuşdur.

1900-1913-cü illərdə təkcə Bakı və Yelizavetpol quberniyalarında pambıq əkini sahələrinin 19 min desyatindən 105 desyatinə qalxması, yəni 5,5 dəfə artması işində traktorlardan istifadə edilməsinin də müəyyən təsiri var idi. Belə ki, 1913-cü ildə Rusiyada əkinçilikdə istifadə edilən 152 traktordan cəmi 6-sı Şimali Azərbaycanda idi. F.Vəzirovun Hindarx mülkündə 1, Həsən bəy Hüseynovun Yevlaxdakı mülklərində 1 və Ağdamda fəaliyyət göstərən «Qafqaz pambığı» səhmdar cəmiyyətinin təsərrüfatlarında 2 traktor var idi (2, 26).

Pambıq əkini sahələrinin genişləndirilməsi baxımından Şimali Azərbaycan mülkədarlarının bir çoxu daha irəlidə idi. Onlar öz təsərrüfatlarında mütərəqqi üsül, qurğu və suvarma nasoslarından belə istifadə edərək daha çox gəlir əldə edə bilirdilər (1, 52). İsrafil bəy Bağırov, Ağa bəy Şamxorski, Lütfəli bəy Zülqədərov və başqaları əvvəlcə 30-50 desyatin əkin sahəsində pambıqçılıq təsərrüfatı yaratmışdılarsa, sonrakı bir neçə il ərzində bu sahələri, təxminən, 40-100 dəfə arası genişləndirməyə nail olmuşdular. Yelizavetpol qəzasının Dəllər kəndində iri torpaq sahibi olan Lütfəli bəy Zülqədərovun mülkündə 1903-cü ildə cəmi 50 desytatin sahədə pambıq əkilmişdisə, 1912-ci ildə bu rəqəm 2 min desyatinə çatmışdı.

Yenə də orada Ağa bəy Şamxorski, cəmi 8 il ərzində özünün pambıq əkini sahələrini 50 desyatindən 6-7 min desyatinə qədər artırmağa nail olmuşdu (6, 98).

XX əsrin ilk illərində də pambıqçılıq əvvəllər olduğu kimi daha çox İrəvan və Yelizavetpol quberniyalarında geniş yayılmışdı, pambıq plantasiyaları ilbəil genişlənirdi. Minlərlə desyatin pambıq əkinləri mülkədar və digər xüsusi mülkiyyətçi kateqoriyasından olan şəxslərin əsl qazanc mənbəyinə çevrilmişdi. İş o yerə çatmışdı ki, bəzi mülkədarlar pambıq plantasiyalarının artırılması naminə taxıl əkinlərini azaldırdılar (11, 31-32). Pambıq məhsulunun qiymətinin yüksəkliyi və daha çox gəlir verməsi ona gətirib çıxarırdı ki, bəzən meşəlik sahələr belə ağaclardan təmizlənir, hətta qışlaq yerləri pambıq plantasiyalarına çevrilirdi.

Biz bir qədər əvvəl H.Z.Tağıyevin pambıqçılıq sahəsindəki fəaliyyətindən qısaca bəhs etmişdik. İndi onun ardınca Şimali Azərbaycanda daha bir qrup sənayeçi, kapitalist, tacirlər və başqa torpaq sahələri satın alaraq və ya əkin sahələrini icarəyə götürərək orada pambıqçılıq təsərrüfatları təşkil etmişdilər. 1903-1913-cü illərdə Şimali Azərbaycan kəndində pambıq əkin sahələrinin, demək olar ki, bütün bölgələrdə artdığı müşahidə edilirdi. 1913-cü il məlumatına görə Yelizavetpol quberniyasında 61700 desyatin, Bakı quberniyasında isə 35300 desyatin pambıq əkin sahələri olmuşdur (4, 126). Bu sahənin, təxminən yarısı dövlət kəndlərinin payına düşürdü.

Pambıqçılıqda əmtəə-kapitalist münasibətləri inkişaf edib dərinləşdikcə sahibkar kəndlərini də əhatə edən ilk borc – kredit təşkilatları yaranırdı(17, 121). Kredit –kooperasiya təşkilatlarının yaranması bu yolda atılmış ilk addımlardan biri idi. Bunlar əsasən varlı-qolçomaq kəndlilərin, qismən də mülkədarların nümayəndələrinin iştirakı ilə yaradılmış kiçik əmtəə istehsalçılarının birliyi idi. Əslində belə kredit təşkilatlarının fəaliyyətindən varlı-qolçomaq təsərrüfatları daha çox istifadə edirdilər (7).

Şimali Azərbaycanın sahibkar kəndində ilk kredit təşkilatları Bakı quberniyasında 1908-ci, Yelizavetpol quberniyasında isə 1909-cu ildə yaranmışdı (15, 309). Cəmisi 4-5 il ərzində onların sayı 129-a çatmışdı (3, 24). İlk belə kredit təşkilatları məhz Qazax, Şamaxı və Göyçay qəzalarında açılmışdı. Həm bu, həm də sonrakı illərdə açılmış belə kredit təşkilatlarının 25 nəfərdən 2000 nəfərə qədər üzvü olurdu. Lakin bu təşkilatların yalnız bir qismi pambıqçılıqla məşğul olan sahibkarların fəaliyyətiinə kömək göstərirdi. Məsələn, Cavad qəzasındakı kredit şirkətlərinin sayı 9-a çatırdı və onların birlikdə malik olduqları kapitalın cəmi 336 min rubldan çox idi. Bunlardan bəzilərinin hətta pambıqtəmizləmə zavodları da vardı (14, 78).

Lakin bütövlükdə götürdükdə kredit təşkilatlarının mülkədar, varlı-qolçomaq və digər sahibkar kəndli təsərrüfatlarını əhatəetmə dairəsi eyni deyildi və pambıqçılıqla məşğul olunan qəzaların bir çoxunda belə təşkilatların fəaliyyətinə rast gəlinmirdi. Eyni zamanda, belə kredit təşkilatlarının xidmətindən qismən mülkədarlar, əsasən də varlı-qolçomaq kəndlilər istifadə edə bilirdilər (3, 76-77). Sahibkar kəndlilərin böyük əksəriyyəti kredit təşkilatına daxilolmanın maliyyə çətinlikləri üzündən və digər səbəblərdən onların xidmətindən kənarda qalırdılar.

Bunlara baxmayaraq kredit təşkilatlarının yaranması XX əsrin əvvəllərində sahibkar kəndli üçün yeni hadisələrdən biri idi və onlar pambıqçılıq təsərrüfatlarında becərmə üsullarının, istehsal texnikasının yaxşılaşmasına, hətta pambıqtəmizləmə zavodlarının açılmasına şərait yaradaraq kənd təsərrüfatı istehsalının bu sahəsinin əmtəə-kapitalist münasibətlərinə daha tez uyğunlaşmasını göstərən və onu sürətləndirən amilə çevrilirdi.

Beləliklə, pambıqçılıq təsərrüfatında əmtəə-kapitalist münasibətlərinin inkişaf prosesi digər sahələrlə bərabər getsə də, bu sahənin məhsullarının birbaşa bazar, alqı-satqı üçün nəzərdə tutulması, digər sahələrlə müqayisədə bu

sahədə becərilən məhsulun əmtəəlik hissəsinin xüsusi çəkisini (ipəkçilik istisna olmaqla)ən yüksək həddə çatdırırdı.

Pambıq, xüsusilə təmizlənmiş pambıq – mahlıc məhsulu ilə ticarət əməliyyatları pambıqçılıqla məşğul olunan qəzaların hamısında eyni vəziyyətdə deyildi. Bu sahədə Göyçay qəzasında Ağdaş, Cavad qəzasında Petropavlovsk kəndlərindəki, habelə Ağcaqabul stansiyası yaxınlığındakı bazarlar, xüsusi olaraq, aparıcı rol oynayırdılar (10, 155). Satın alınmış mahlıc sonradan ən çox Dəllər, Şamxor, Yelizavetpol, Yevlax, Ləki dəmiryol stansiyaları və Bakı limanı vasitəsilə Rusiyanın daxili quberniyalarına və digər yerlərə göndərilirdi.

Bəzi hesablamalara görə, 1910-1912-ci illərdə Bakı və Yelizavetpol quberniyalarında pambıq satışından 29 milyon rubl gəlir əldə edilmişdi (4-156). Bu onu göstərirdi ki, pambıqçılıq digər sahələrdən daha tez əmtəə xarakteri daşımış, pambıq, çiyid və digər əmtəəlik məhsulların daha da artması nəticəsində bu sahənin Şimali Azərbaycanın kənd təsərrüfatında, ümumiyyətlə, iqtisadiyyatında olan rolu ilbəil artmışdır.

Şimali Azərbaycan sahibkar kəndində pambıqçılıq təsərrüfatının bu cür sürətlə inkişafı pambıqçılıqla məşğul olunan qəza və kəndlərdə torpağa kəskin tələbat yaradırdı. Bu isə yerli mülkədarlara və qolçomaq-varlı kəndlilərə öz torpaq sahələrini ağır şərtlərlə pambıq əkini ilə məşğul olmaq istəyən aztorpaqlı sahibkar kəndlilərə icarəyə verilməsini sürətləndirir, eyni zamanda ilbəil icarəetmə qiymətləri də artırırdı. Şimali Azərbaycanda pambıq plantasiyalarının ən çox yayıldığı Muğan torpaqlarında 1 desyatin torpağı ildə 5-15 rubla icarə götürmək olardısa, sonrakı on il ərzində bu rəqəm 100 rubla qədər qalxmışdı (11, 35).

Beləliklə, sənaye pambıqçılığı təsərrüfatı, demək olar, formalaşmağa başladığı ilk vaxtdan etibarən əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı yolu ilə daha ardıcıl və sürətlə irəliləməkdə idi. Pambıqçılıqla ilbəil daha çox məşğul olmağa çalışan sahibkar kəndinin hər bir nümayəndəsi, istər mülkədar-bəy, istərsə də aztorpaqlı və torpaqsız sahibkar kəndli olsun, hətta torpaq sahəsi icarəyə götürmək yolu ilə olsa belə, bu təsərrüfat sahəsinin imkanlarından yararlanmağa çalışırdı. Bu zaman mülkədar–bəy bir tərəfdən alqı-satqı və ya bazar münasibətlərinin əsas tərəflərindən birinə çevrilir, digər tərəfdən isə icarədar kəndli mülkədar malikanələrindəki pambıq plantasiyalarında ağır zəhmətə qatlaşan muzdlu işçi təbəqəsini yaradırdı.

Beləliklə, pambıq məhsulunun çoxalması, bu məhsulun satılması və əldə olunan gəlirin artması fonunda hazır məhsulun hansı formada realizə edilməsi ən vacib məsələlərdən biri idi. Əgər mülkədarların və varlı-qolçomaq kəndlilərin təsərrüfatlarında əldə edilmiş pambıq məhsulunun satılması prosesi kifayət qədər mütəşəkkil formaya malik idisə, bu sözləri sahibkar kəndində istehsal olunan pambığın, təxminən, 1/7-dən azını əldə edən sahibkar kəndlilər haqqında demək mümkün deyildi. Beləleri, bir qayda olaraq, hazır məhsulu satmaq üçün yaşadıqları ərazidən çox da uzağa apara bilmir və onu borc aldıqları sələmçilərə, vasitəçilərə, özü də maya dəyərindən və real bazar qiymətlərindən

aşağı satmağa, ya da yaxınlıqda mövcud olan pambıqtəmizləyici zavodlara verməyə məcbur olurdular (8, №120).

Sahibkar kəndlilər min bir zəhmət və əziyyət bahasına topladıqları pambıq məhsulunu ya toxuculuq və ticarət firmaların nümayəndələrinə ya yaşadığı kəndli hüdudları daxilində, ya da yaxınlıqdakı qəza bazarlarında yenə də həmin kateqoriyadan olan alverçilərə satmalı olurdular. Bu vəziyyət 1890-cı illərin əvvəlindən başlayaraq sürətlə dəyişirdi. Belə ki, çox tezliklə hazır pambıq məhsulu möhtəkir və ya alverçi-tacir dairələrinin nümayəndələri tərəfindən yerlərdəcə satın alınmağa başlamışdı (11, 35-36).

Qəribə olsa da, pambıq məhsulunun satışının ilkin forması dağınıq, kortəbii xarakter daşıyırdı. Bu vaxt satıcı, sözsüz ki, məhsulun miqdarı az olanda, elə istehsalçı sahibkar kəndli özü olurdu. XIX əsrin 80-90-cı illərin qovuşuğunda elə bu kəndlilərin içərisindən öz həmkəndlilərindən məhsulu satın alıb sonra baha qiymətlə satan alverçilər, möhtəkirlər yetişirdi. Bu, artıq varlı-qolçomaq kəndlilərdən sonra kənd burjuaziyası təbəqəsinin sıralarının yeni üzvləri idilər. Belələrini, bəzən alverçi, bəzən möhtəkir, bəzən də ticarət burjuaziyasının nümayəndələri də adlandırırdılar (13, 45-46).

Bəzən belə də olurdu ki, möhtəkirlər gələcək pambıq məhsulunu sahibkar kəndlidən mövsümi işlərin lap başlanğıcında və ya gedişi zamanı əvvəlcədən satın alır, hətta istehsalçıya beh də verirdilər. Təbiidir ki, bu vəziyyətdə sahibkar kəndli satıcı kimi çox şey itirirdi. Ən əvvəl, məhsulun qiyməti möhtəkir tərəfindən müəyyən olunurdu və bu da bazar qiymətlərindən və ya deyildiyi kimi, məzənnədən əhəmiyyətli dərəcədə aşağı olurdu. Daha sonra hazır məhsul alınarkən, növü, nəmliyi, təmizlik dərəcəsi və s. bəhanələrlə məhsulun əvvəlcədən razılaşdırılmış qiymət dərəcəsi də aşağı salınırdı (12, 126-127).

Bu isə ona gətirib çıxarırdı ki, əgər mövsümi işlərin gedişində ya təbii fəlakət baş verəndə, ya da zərərvericilər məhsulu məhv edəndə (bunlar vaxtaşırı baş verən hadisələr idi) sahibkar kəndli əvvəlcədən nəzərdə tutduğu məhsulu toplayıb möhtəkir və tacirlərə verə bilmirdisə, onda ya birdəfəlik borc faizləri altında qalaraq onlardan asılı vəziyyətdə yaşayır, ya da öz torpaq sahəsini, əmlak və əşyalarını borc əvəzinə dəyər-dəyməzinə satmalı olurdu.

Beləliklə, məhz pambıqçılıqda tacir-möhtəkirlər eyni vaxtda bir neçə simada və ya keyfiyyətdə çıxış edirlər. Çünki əvvəlcə yalnız hazır pambıq məhsulunu alıb sərfəli qiymətlə satmağı planlaşdıran möhtəkir – tacir indi borcunu qaytara bilməyənlərin torpağının sahibi olur, yaxud özü nəqd pulla belə torpaq sahələrini alıb torpaq mülkiyyətçisinə çevrilir, ya da ki, satın aldığı, yaxud icarəyə götürdüyü torpaq sahələrini alıb torpaq sahibi olur, ya da ki, satın aldığı, yaxud icarəyə götürdüyü torpaq sahələrində pambıqçılıq təsərrüfatı yaradaraq muzdlu işçilərin əməyindən istifadə edərək çox böyük miqdarda qazanc əldə edirdilər (12, 127). Bu şəxslər kənddə yeni sima, yeni yaranmış ticarət-sənaye dairələrinin nümayəndələri kimi çıxış edirdilər. Onların iştirakı ilə artıq sahibkar kəndində bundan bir az əvvəllər təsadüf edilməyən yeni cəhətlər meydana çıxır, yeni proseslər baş verirdi. Eyni şəxslər kəndlinin torpaq sahəsi-

ni girov alıb borc verir, hazır məhsulun alıcısı kimi çıxış edir, alınmış məhsulu baha qiymətə sataraq tacir simasında çıxır edir, daha sonra da torpaq sahəsi alıb mülkiyyətçiyə - torpaq sahibkarına çevrilir, ya da ki, artıq satın alınmış torpaq mülklərində yenə də həmin sahibkar kəndlilərin hesabına muzdlu işçi qüvvəsi cəlb edən istehsalçı və ya sənaye burjuaziyasının nümayəndələri kimi çıxış edirdilər.

Lakin bu vəziyyət uzun müddət davam edə bilməzdi. Müxtəlif fəaliyyət sahələri ilə məşğul olmaqla öz qazancını birə-beş artırmağa nail olan bu şəxslər ən çox istehsalçılarla sənayeçilər arasında vasitəçilik etməyə üstünlük verirdilər və bu zaman digər fəaliyyət sahələrindən heç də az olmayan qazanca sahib oldular.

Vaxt keçdikcə bu şəxslər toxuculuq fabrikləri, çox iri miqyasda pambıq məhsulu alıcıları, xarici firmaların əməkdaşları və başqaları ilə çoxtərəfli və geniş əlaqələr qururdular.

**ƏDƏBİYYAT**


1. Авдеев М.Культура хлопка в Азербайджане. Народное хозяйство, 1921, №2-3 (11-12).
2. Vəliyev T.T. XX əsr Azərbaycan tarixi. I c. Bakı: Təhsil, 2009, 560 s.
3. Гугушвили П. В. Аграрные отношения в Закавказье на рубеже XIX-XX вв.. Тбилиси: Наука, 1955, 698 с.
4. Исмаилов М.А. Сельское хозяйство Азербайджана в начале XX века. Баку: Элм, 1960, 261 с.
5. Исмаилов М.А.Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX-XX веков. Баку: Элм, 1960, 305 с.
6. Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: Элм, 1982, 165 с.
7. Газ. «Каспий», 8 июня 1901 г., №148
8. Газ. «Каспий», 9 июня 1898 г., №120
9. Lenin V.İ. Rusiyada kapitalizmin inkişafı. Əsərlərinin tam külliyyatı. c.III., Bakı: Azərnəşr, 1974, 836 s.
10. Памятная книжка Елизаветпольской губернии за 1910 г., Тип. Губернского управления. Елизаветполь 1911 г.
11. Петрович П. Хлопководство в Закавказье. Тифлись, 1912.
12. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку: Элм., 1956. - 346 с.
13. Труды сьезда хлопководов в городе Тифлисе 1-6 ноября 1912 года. Т.II, ч.2. Тип. Губернского статистического управления., Тифлис: 1914 г., 335 с.
14. Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1913 г. Типография Губернского статистического управления. Тифлис: 1915 г. 100 с
15. Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX -начале XX вв., Баку: Элм, 2002, 526 с.

## ОБРАЗОВАНИЕ ТОВАРНО-КАПИТАЛИСТИЧЕСКИХ ОТНОШЕНИЙ В ХЛОПКОВОДСТВЕ ВО ВЛАДЕЛЬЧЕСКОЙ ДЕРЕВНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XIX-НАЧАЛЕ XX ВВ.

**Ф.Э.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В статье излагается все изменения в деле образования товарно-капиталистических отношений во владельческой деревне Северного Азербайджана. Указывается, что не только помещики и беки, но и их крестьяне на своих хозяйствах стали производить различные товары все больше и больше. Одной из таких отраслей являлось хлопководство. Помещики Северного Азербайджана каждый год увеличивали хлопковые посевы и получали большую прибыль. Помещики, беки и другие собственники отдавали хлопковые посевы в аренду разным лицам или сами стали вести свое хозяйство по новым капиталистическим правилам. Очень часто прибегали к использованию наемного труда в своих хозяйствах.

**Ключевые слова:** капиталист, развитие, деревня, Север

## THE FORMATION OF CAPITALIST RELATIONS IN THE POSSESSORY VILLAGES OF NORTHERN AZERBAIJAN IN THE LATE NINETEENTH CENTURY

**F.E.BAKSHALIYEV**

### SUMMARY

The article describes all the changes in the formation of capitalist relations in the possessory villageS of Northern Azerbaijan. It is indicated that not only the landlords and bays, but also their peasants began producing different products on their farms more and more. Landowners of Northern Azerbaijan gradually lost their former lands, gave their lands to rent to different people and began to conduct their farms themselves under the new capitalist rules.

**Key words:** capitalist, development, village, Northern